AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2020, № 2 (264), 23-34
http://dx.doi.org/10.29228/edu.337

METODİKA

# Tarix dərslərində bədii ədəbiyyatdan istifadə

***Cəmilə Atakişiyeva***
Sabirabad Peşə Liseyinin tarix müəllimi. Azərbaycan.
E-mail: q.cemila1999@gmail.com
https://orcid.org/0000-0003-0845-1888

**XÜLASƏ**
**Müasir həyatımızda hər elmin inkişaf və təkamül etdiyi bir zamanda təhsildə də fənlərin bir-birinə inteqrasiyasına yaranan ehtiyac özünü aydın göstərir. Məqalədə qoyulan məsələnin özünəməxsus praktik əhəmiyyəti vardır. Belə ki, istifadəsi mümkün olan bədii ədəbiyyat nümunələrinin araşdırılması, bədii əsərlərdən istifadə zamanı yarana biləcək problemlərin müəyyən olunması, bədii ədəbiyyatdan istifadə formaları kimi məsələlər öz həllini tapmışdır. Bu da, öz növbəsində, tarix müəllimlərinin, pedaqoji universitetin bakalavr və magistratura pilləsində təhsil alan, pedaqoji təcrübəyə gedən tələbələrin təlim prosesində tədqiqat işindən faydalanmasına şərait yaradır.**

**AÇAR SÖZLƏR**
Tarix fənni, bədii ədəbiyyat, kurikulum, dərslik, Azərbaycan tarixi

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib – 02.04.2020
qəbul edilib – 10.04.2020

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2020, VOL. 264, NO. 2, 23-34
http://dx.doi.org/10.29228/edu.337

METHODS

# Use of fiction in history lessons

*Jamila Atakishiyeva*
History teacher of Sabirabad Vocational High School. Azerbaijan.
E-mail: q.cemila1999@gmail.com
https://orcid.org/0000-0003-0845-1888

**ABSTRACT**
At a time when everything is developing in our modern life, the need for the integration of subjects in education is clearly seen. The issue raised in the article has a special practical significance. Thus, issues such as the study of usable examples of fiction, the identification of problems that may arise during the use of works of art, the forms of use of fiction have been resolved. This allows, any history teacher, undergraduate and graduate students of higher pedagogical schools, and interns to benefit from research in the learning process.

**KEYWORDS**
Subject of History, fiction, curriculum, textbook, history of Azerbaijan

**ARTICLE HISTORY**
Received – 02.04.2020
Accepted – 10.04.2020





## Giriş / Introduction

Tarix fənninin tədrisi prosesində tarixi mənbə hesab olunan bədii ədəbiyyatdan istifadənin müsbət tərəfləri mövcuddur. Bu, eyni zamanda müəllimin şərhini qüvvətləndirən vasitələrdən biridir. Buna baxmayaraq, müasir dövrdə müəllimlər bədii ədəbiyyatdan istifadə edilməsinə laqeyd yanaşır, bəzən isə nümunələri düzgün müəyyənləşdirməkdə çətinliklərlə qarşılaşırlar. Elə məhz bu səbəbdən problemin nədən ibarət olduğunu araşdırmaqla, səmərəli üsullarla işləyərək mümkün bədii ədəbiyyatdan istifadə imkanlarını müəyyənləşdirməklə fənn müəllimlərinə kömək etmək zəruriyyəti yaranmışdır. Bu səbəbdən də mövzu tədqiqat obyektinə çevrilmişdir. Bədii ədəbiyyatdan istifadənin şagird təlim-tərbiyəsinin müsbət istiqamətdə formalaşdırılması üçün olduqca təsiredici xüsusiyyətləri mövcuddur. Bunu nəzərə alan müəlliflər dərslik və dərs vəsaitlərini hazırlayarkən bədii əsərlərdən məqsədəuyğun şəkildə nümunələr vermişlər. Müəllim öz təcrübə və dünyagörüşünə əsasən, yeri gəldikdə müvafiq olaraq digər bədii ədəbiyyat nümunələrindən də istifadə edə bilər.

## Nəzəri tədqiqat mərhələsi

Tədqiqat işində tarix fənninin tədrisi zamanı bədii ədəbiyyatdan istifadənin müasir dövrdə aktuallığı əsaslandırılmış, şagirdlər üçün müsbət təsirləri aşkarlanmışdır. Müəllimin mövzunu bədii ədəbiyyatla əlaqələndirərək geniş və aydın izah etməsi şagird təxəyyülündə hadisələrin canlanmasına səbəb olan fakt kimi əsaslandırılmışdır. Belə ki, bu üsulla tarixi hadisələrlə bağlı verilən biliklər bədii əsər vasitəsilə bir daha öz təsdiqini tapır.

Tədqiqat işində elmi-metodik ədəbiyyatın araşdırılması və bədii ədəbiyyatdan istifadə metodikasının öyrənilməsi bildirilmişdir.

Tarix fənninin tədrisi zamanı bilik mənbəyi kimi istifadə edilən vasitələrdən biri olan bədii ədəbiyyatın mövzunun mənimsənilməsinə təsiri öyrənilmiş, tədqiqat zamanı tarix dərslərində bədii ədəbiyyatdan istifadənin nəzəri əsasları araşdırılmışdır. Belə ki, müəllimlər tarixi hadisələri şagirdlərə öyrədərkən yalnız dərsliklərlə kifayətlənməməli, həm də digər informasiya vasitələrindən istifadə etməlidirlər. Bədii ədəbiyyat isə bu vasitələrin ən mühümlərindəndir. Məqalədə tarixi hadisələri şagirdlərə mənimsətmək, onları daha yaddaqalan etmək üçün bədii ədəbiyyatın imkanlarından faydalanmağın mümkünlüyü əks olunmuşdur. Bədii ədəbiyyat nümunələrinin tarix dərsləri üçün məxəz ola biləcəyi fikri öz təsdiqini tapmışdır. Tarix dərslərində bədii ədəbiyyatdan

istifadə olunması yalnız şagirdləri tarixi məlumatlarla təchiz etmir, həm də təhsil siyasətimizə uyğun yeni nəslin formalaşması üçün lazım olan şəxsi keyfiyyətlərin şagirdlərə təbliğ olunmasına da şərait yaradır. Bu da şagirdlərin qazandıqları nailiyyətlərə, keyfiyyət göstəricilərinə, davranış tərzinə təsir edərək, onların müsbət istiqamət üzrə inkişaf etdirilməsinə kömək edir. Tarix dərslərində bədii ədəbiyyatdan istifadənin şagirdləri müxtəlif əsərlərlə tanış etməyin əsas yolu olduğu üçün onların dünyagörüşünün və mütaliə bacarıqlarının formalaşmasına təsiri xüsusilə vurğulanmışdır. Bədii ədəbiyyatdan istifadənin bu kimi təsirlərin geniş yayıldığı, həm müəllim, həm də şagird fəaliyyətini əhatələdiyi üçün tədqiqat işi olduqca aktualdır. Belə ki, tarix dərslərində bədii ədəbiyyatdan istifadənin müəllim üçün də faydası və bu faydanın hansı istiqamətdə olması da tədqiqat işində öz yerini almışdır. Tarixin təkrarolunmazlığı, keçmiş ictimai şəraitlə müasir cəmiyyətdə gedən proseslər arasındakı fərqlər və bu kimi problemlər bədii ədəbiyyatdan istifadə vasitəsilə həll oluna bilər. Bədii ədəbiyyat aid olduğu dövrə işıq tutaraq dövrün ictimai vəziyyətini, insanların şüurunu, davranış formalarını, tarixi hadisələri beynimizdə canlandıraraq təsəvvür etməyimizi aydınlaşdırır, zamanın təfəkkürünü əks etdirir. Bununla da bədii əsərlərdən tarix dərslərində istifadənin aktuallığı öz təsdiqini tapmışdır.

Tarix fənninin tədrisi zamanı istifadə olunan bədii ədəbiyyat nümunələri öyrənilən dövrün bədii əsərləri və tarixi ballestristika olmaqla iki yerə ayrılır. İlk qrupa aid olan əsərlər dövrün müasirləri tərəfindən qələmə alınır, mühüm mənbə hesab olunur və xüsusi önəm kəsb edir. Digər qrupa aid əsərlər isə daha sonrakı dövrün müəllifləri tərəfindən yazılan əsərlərdir. Bu əsərlər müəlliflərin müxtəlif tarixi sənədlərə, mənbələrə istinad edərək apardıqları tədqiqatlar nəticəsində ərsəyə gəlmişlər. Buna görə də elmilik və tarixilik baxımından daha əhəmiyyətli sayılırlar [Əmirov M. 2011].

Tarix dərslərində bədii ədəbiyyatdan istifadə zamanı yarana biləcək problemlər və bu problemlərlə qarşılaşan zaman həll yolu ola biləcək üsullar tədqiqat işində əks olunub. Tarix dərslərində bədii ədəbiyyatdan istifadənin mümkün yolları, müəllimlərin dərs prosesində və dərsdənkənar bədii ədəbiyyat nümunələrindən tapşırıq kimi istifadəsi, öz nitqinə əlavə etməsi üsulları da tədqiqat işində toxunulan mövzulardır. Öz dərsində bədii ədəbiyyatdan faydalanmaq istəyən tarix müəlliminin davranış forması da əks etdirilmişdir.

Onu da qeyd edək ki, tədqiqat zamanı mübahisəli müqayisə, təhlil, tərkib, statistika üsullarından istifadə ön plana çəkilmişdir.





**Praktiki mərhələ**

Tədqiqat işində bədii ədəbiyyatdan istifadə zamanı seçilmiş əsərlə "davranış" yolu, tarix dərsində istifadəsi nəzərdə tutulan ədəbi əsərdə hansı xüsusiyyətlərə diqqət yetirilməsindən bəhs edilir. Bədii ədəbiyyatdan istifadə edərək şagirdləri vətənpərvər ruhda yetişdirmək, onlarda empatiya hissini formalaşdırmaq, gələcəkdə baş verəcək hər hansı sosial situasiyada necə davranmalarını bilmələri üçün də əlverişli vasitədir. Bədii ədəbiyyatdan istifadə edərkən əsərlər araşdırılmalı, mövzuyla uyğunluğuna diqqət yetirilməlidir.

Təhsil islahatına əsasən, yenilənən, kurikulumun əsaslarına uyğunlaşdırılaraq hazırlanmış tarix fənni üzrə dərsliklər tədqiq olunmuşdur. Keçilən mövzu ilə əlaqəli olan, onun tarixiliyini, məlumatlılığını artıran, onu dəstəkləyən, aydınlaşdıran parça və hissələr tarix fənni dərsliklərində öz yerini almış, burada verilmiş bədii ədəbiyyat nümunələri araşdırılmışdır [Məlikov R., Nəzərli T. 2002]. Dərsliklərdə yer tutan həmin bədii parçaların istifadə səbəbi, yerinin seçilməsi, istifadəsinin təsiri kimi məsələlər əsaslandırılmışdır. Dərsliklərdə verilmiş bədii ədəbiyyat hissələrinin təhlili tarix dərslərində bədii ədəbiyyatdan istifadənin nə dərəcədə əhəmiyyətli olması barədə fikri bir daha təsdiq edir. Belə ki, bu və ya digər nümunənin yeri təsadüfi olmayıb, şagirdlərin mövzunu daha dərindən qavramasına, tarixi hadisələri təsəvvürlərində canlandırmasına şərait yaradır. Tarixi obrazlar tarix fənninin tədrisində məktəblilərə emosional cəhətdən yüksək təsir göstərir. Bəzi hallarda isə məktəblilər müəllim biganəliyi ilə üzləşir. Bu kimi halların qarşısını almaq üçün lazımlı tədbirlər tədqiqat işində bildirilmişdir.

Yadda saxlamaq lazımdır ki, tarix dərslərində bədii ədəbiyyatdan istifadə müəllimlərin özləri üçün də olduqca faydalıdır. Belə ki, bu yolla şagirdlər mövzunu daha yaxşı mənimsəyir, dərs daha canlı keçir, müəllimin nitqi tarixi hadisələrlə tamamlanır. Öz dərsində bədii ədəbiyyata müraciət etməyi düşünən müəllim əvvəlcədən müəyyən hazırlıq işləri görməlidir. Hansı əsərdən istifadə edəcəyini, əsərdən hansı hissələri şagirdlərin diqqətinə çatdıracağını əvvəlcədən seçməlidir, çünki seçilən hissə kor-koranə xarakter daşımamalıdır. Əlbəttə, mövzunun tədrisinə kömək edəcək parçalar seçilməlidir. Bəzən əsər tarixi hadisə ilə tam əlaqəli olmasa da, oradakı kiçik bir nüans, hər hansı bir cümlə tarix dərsinin tədrisində böyük fayda verə bilər. Dərsin gedişində əsərdən iri hissələrin oxunması çox zaman alır. Ona görə də daha çox kiçik hissələrə üstünlük verilməsi, onların əzbər şəkildə söylənməsi məsləhətdir. Müəllimin tədris edəcəyi mövzuya hazırlaşarkən izahına ayrı-ayrı bədii ədəbiyyat nümunələrindən bir-iki cümləlik parçalar, təsvirlər, bir sıra ifadələr əlavə etməsi

mümkündür. Müəllimlər bədii ədəbiyyatdan hər dərs istifadə etməyə də bilərlər. Bəzən bədii əsərin adını demək, buradakı obrazı şagirdlərə xatırlatmaq da bəs edər. Bu hal əsər şagirdlərə əvvəlcədən tanış olduqda işə yarayır. Şeir parçalarından istifadə də məqsədəuyğundur.

Tarix dərslərində bədii ədəbiyyatdan istifadə olunması onun təhsil vəzifələrinin öhdəsindən gəlməkdə kömək edir. Tarixi mənbə olaraq, bədii-ədəbi əsərlərin istifadəsinin mümkünlüyü XX əsrdən etibarən xüsusi diqqət mərkəzindədir. Bu məsələ bir çox alimlər tərəfindən araşdırılıb. Fikri ifadə üslubları fərqli olmasına baxmayaraq, alimlərin gəldiyi ümumi qənaət bədii ədəbiyyatın tarixi mənbə rolunu oynaması faktıdır. Bədii əsərlər bir mənbə hesab olunması üçün bütün tələblərə cavab verir. XX yüzilliyin sonlarına doğru bədii ədəbiyyat əhəmiyyətli tarixi məxəz kimi öz təsdiqini tapmışdır. Bu mənbə məqsədyönlü insan fəaliyyətini də əks etdirir. Əsrin əvvəllərindən etibarən bədii ədəbiyyatın tarix fənni üçün əhəmiyyəti bir daha dəyərləndirilmişdir.

Bədii ədəbiyyata mənbə kimi yanaşılarkən bir sıra xüsusiyyətlər nəzərə alınmalıdır. Bu amillər tədqiqat işində öz əksini tapmışdır. Tarixi mənbə kimi bədii əsərləri mənimsəmək olduqca qarışıq, çoxcəhətli və çətin prosesdir. Belə ki, bədii ədəbiyyat tədqiqatçıdan zəngin ədəbi məlumat, mənbə analizi və sintezi üsulları ilə bağlı bacarıqlardan əlavə, həm də bu əsərlərin filoloji cəhətdən mənimsəmə bacarığını da bilməyi zəruri edir [Rumyantsev V. 2003].

Tarix dərslərində bədii ədəbiyyatdan istifadənin bir üsulu da bu və ya digər əsəri məktəblilərə tapşırıq olaraq verməkdir. Belə ki, şagirdlərə əsərlə tanış olub, buradakı tarixi faktları fərqləndirmək, mövzuda istifadəsi mümkün hissələri seçmək kimi tapşırıqlar verilə bilər. Yuxarı siniflər üçün uyğun olan bu hal şagirdlərə tədqiqatçılıq bacarıqları aşılayır, həyatlarında rastlaşdıqları informasiya mənbələrinə tarixi məlumat mənbəyi kimi yanaşmağı öyrədir. Bədii ədəbi nümunələri mövzu ilə uyğunluq əsasında müəllim həm öz şərhinə əlavə edə bilər, həm də şagirdlərin istifadəsinə müstəqil iş, fərdi oxu, mənbə kimi verə bilər. Müəllim tapşırıq formasından istifadə etməklə, şagirdlərdə bədii ədəbiyyatla işləmək bacarığını aşılayır. Bu halda mətnin dili şagird tərəfindən anlaşılan olmalıdır. Müəllim məktəblilərin yaş səviyyəsi və tədris olunacaq mövzu ilə əlaqəli bədii əsərdən tarixi hissələrin seçilməsini, esse yazmağı tapşırarkən bədii ədəbi əsərlərdən mənbə kimi istifadə olunmasını şagirdlərinə məsləhət görə bilər.

Günümüzə qədər çoxlu sayda bədii əsər qələmə alınmışdır. Bunların hamısı tarixin tədrisi üçün faydalı olmaya bilər. Bəzən isə tarixi hadisələr müəllifin subyektiv düşüncəsini, aid olduğu sinfin görüşünü əks etdirir. Bu kimi hallar və onların həlli yolları da tədqiqat işində əks olunmuşdur. Bunun üçün, ilk növbədə, bədii ədəbi nümunəyə tənqidi yanaşılmalıdır. Bədii əsərlərin araşdırılması, təhlili prosesi





şagirdlərlə birlikdə də aparıla bilər. Bu da, öz növbəsində, məktəbliləri tədqiqatçılığa sövq edər.

Məqalədə mövzu ilə bədii ədəbiyyat arasındakı uyğunluq vacib şərt kimi götürülmüş, mövzuya müvafiq olaraq istifadəsi mümkün və uyğun olan bədii əsər qeyd olunmuşdur. Bu əsərlərin siyahısı, əlbəttə, artırıla bilər. Belə ki, müəllim yalnız dərslikdə verilmiş bədii hissələrlə kifayətlənməyərək, öz təcrübəsinə və dünyagörüşünə uyğun olaraq digər bədii əsərlərdən də nümunələr gətirə bilər. Şərt deyildir ki, bədii əsər tamamilə tarixi mövzuda olsun. Digər müstəvidə yazılmış əsərlərdə də tarixi məlumatın mövcud olması mümkündür. Bundan əlavə, hər bir bədii ədəbiyyat yazıldığı dövrün ruhunu əks etdirir və həmin dövrün ictimai, sosial, psixoloji şəraiti haqqında məlumat verir. Dərs prosesində bədii əsərdən müəyyən parçanın şagirdlərə çatdırılması onlarda bu əsərə qarşı maraq oyadar, həmin əsəri fərdi şəkildə öz istəyinə uyğun öyrənməsinə kömək edə bilər, gələcək nəsil içərisində kitab oxumağa həvəsi olan şəxslərin sayının artmasına gətirib çıxarar. Bu isə həm xalqımız, cəmiyyətimiz, həm də dövlətimiz üçün müsbət haldır. Dünyada ən xoşbəxt, yaşanması ən uyğun ölkələrin siyahısı ilə, kitab oxuma üzrə göstəriciləri yüksək olan ölkələrin siyahısındakı eyniliklər təsadüfi deyildir.

Tarix dərslərində bədii ədəbiyyatdan istifadə zamanı işlənəcək nümunələri dəqiq seçmək, seçilmiş parçaların məktəblilərin yaş və bilik səviyyələrinə uyğun olub-olmamasına da diqqət yetirmək lazımdır. Şagirdlərin bədii ədəbiyyatla olan ilk tanışlıqları uğursuz nəticələnərsə, bu, onlardakı həvəs və marağın azalmasına gətirib çıxara bilər. Bunun üçün müəllimin fəaliyyəti və bədii ədəbiyyatdan istifadəyə əsaslanacaq dərsə hazırlıq dərəcəsi xüsusi əhəmiyyət kəsb edir [Əmirov M. 2009].

Nəzəri hissədə qeyd edildiyi kimi, tarix dərslərində bədii ədəbiyyatdan istifadənin bir çox müsbət təsirləri vardır. Bunu nəzərə almaqla müəllim dərslərində bədii ədəbiyyat nümunələrinə yer verə bilər, lakin bu zaman həmin nümunələrin mövzuyla uyğunluğu çox vacib məsələdir. Yersiz və əlaqəsiz istifadələr şagirdlərdə anlaşılmazlığa səbəb olar. Belə ki, tarix dərslərindəki bədii əsərlərdən istifadəyə uyğun əsas və ikinci dərəcəli fikirlər müəyyən olunmalıdır. Dərslikdə verilən bədii ədəbiyyat nümunələrindən başqa, müəllim öz təcrübə və dünyagörüşünə əsaslanaraq müstəqil iş verərkən izahında, nitqində, bədii ədəbiyyatdan istifadə edə bilər. Azərbaycan tarixi dərslərində bədii ədəbiyyatdan istifadənin bu baxımdan imkanları olduqca genişdir. Məsələn: ***Azərbaycan tarixi 7-ci sinif:***

"Ərəb işğallarına qarşı mübarizə. Cavanşir" mövzusunda Mehdi Hüseynin tarixi dram əsəri olan "Cavanşir"dən istifadə etmək mümkündür. Bu yolla da tarixi şəxsiyyətlə bağlı şagirdlərin biliklərini zənginləşdirmək olar. Tarix dərslərində

müəllimlər Mehdi Hüseynin digər əsərlərinə də istinad edə bilərlər: "Cavanşir"dən başqa "Nizami" və "Şamil" kimi dram əsərlərində müəllif, görkəmli şəxsiyyətlərin obrazlarını yaratmışdır.

"Xürrəmilər hərəkatı. Babək" mövzusunun tədrisi zamanı müəllimin Ənvər Məmmədxanlının "Babək" romanından istifadə etməsi mümkündür. Yazıçının üzərində uzun müddət çalışdığı bu tarixi roman Azərbaycanın xalq qəhrəmanı Babək haqqında yazılan bütün əsərlər arasında tarixi həqiqətə yaxınlığına, orjinallığına görə fərqlənir. Bu ədəbiyyatdan istifadə edərək dərslikdə səthi verilmiş məlumatları genişləndirmək və bu tarixi qəhrəmanımızla bağlı ətraflı məlumat əldə etmək olar.

"Əhalinin məşğuliyyəti və həyat tərzi" mövzusunu tədris edilərkən bədii ədəbiyyat olaraq "Kitabi-Dədə Qorqud"a müraciət etmək məqsədə müvafiqdir. Bununla da, həmin dövrdə əhalinin məşğuliyyəti, yaşayış tərzi ilə bağlı məlumatları bədii dillə şagirdlərə çatdırmaq mümkündür. "Oğuz-Səlcuq axınları" mövzusunu keçilərkən müəllim Nizami Gəncəvinin "Sirlər xəzinəsi"ndən Sultan Səncərlə bağlı hissədən bir nümunə gətirə bilər:

*Dedi: - Ey Sultan, səndən görməmişəm yaxşılıq,*
*Fəqət neçə zülümə şahid olmuşam artıq.*

*Nə hünər göstərmisən taxt başına gələli?*
*Alt-üst etdin, taladın, viran qoydun bu eli*

[Nizami Gəncəvi. 2004].

Beləliklə, şagirdlərdə Səlcuq imperiyasının süqutunun yaxınlaşdığı bir dövrdə ictimai münasibətlərin necə olması barədə təsəvvürlər formalaşmış olar.

"Azərbaycan XII-XIII əsrin əvvəllərində" mövzusunda Məmməd Səid Ordubadinin "Qılınc və qələm" tarixi romanından istifadə etmək mümkündür. M.S.Ordubadinin axrıncı tarixi romanı olan bu əsərdə böyük şair və mütəfəkkirimiz Nizami Gəncəvinin yaşadığı dövr təsvir edilmişdir. Əsərdə əsas obraz Nizami olsa da, müəllif dövrün mənzərəsini hərtərəfli yaratmışdır. Bu əsərdə, həmçinin Azərbaycan Atabəylər dövlətinin hökmdarları Məhəmməd Cahan Pəhlivan, Qızıl Arslan, Özbək, Əbubəkr surətləri də verilmişdir. Belə olan halda, şagirdlərdə XII-XIII əsrlərdəki mövcud siyasi şərait, ədəbi mühit barəsində təsəvvürlər formalaşacaqdır.

X-XII əsr Azərbaycan tarixini öyrənərkən Ə.Xəqani, Q.Təbrizi, M.Gəncəvi, N.Gəncəvi, F.Şirvani və digər müəlliflərin əsərlərindən istifadə etmək olar.





Yunus Oğuzun "Atabəy Eldəniz" tarixi romanı Atabəylər dövlətinin yaranması, fəaliyyəti, Şəmsəddin Eldəniz, Mömінə Xatun haqqında zəngin məlumat mənbəyi olduğundan Atabəylər dövlətinin şagirdlər tərəfindən mənimsənilməsi üçün bu əsərdən istifadə məqsədəuyğundur. Romanda qul bazarından hakimiyyətə yüksəliş, Səlcuq dövlətinin zəifləməsi məsələləri əks olunub.

"Azərbaycan uğrunda mübarizə" mövzusunda bədii ədəbiyyat kimi İsa Hüseynovun "Məhşər" romanına istinad etmək olar. "Məhşər" tarixi-fəlsəfi roman olub, burada XIV əsrdə Əmir Teymurun yürüşləri dövründə baş verən hadisələrdən, böyük filosof Fəzlullah Nəimi və böyük hürufi şairi İmadəddin Nəsiminin insan və insanlıq uğrunda qeyri-adi mübarizələrindən bəhs olunur. Eyni zamanda bu mövzunun tədrisində Hüseyn Cavidin "Topal Teymur' əsərindən də istifadə etmək mümkündür.

"Mərkəzləşdirilmiş vahid Azərbaycan dövləti" mövzusunda bir sıra bədii ədəbiyyat nümunələrindən, məsələn, Əzizə Cəfərzadənin "Bakı-1501" romanından yararlanmaq faydalı ola bilər. Bu roman Şah İsmayıl mövzusunda yazılmış ilk tarixi romandır. Bundan sonra, Fərman Kərimzadənin "Xudafərin körpüsü", Əlisa Nicatın "Qızılbaşlar" romanlarında Səfəvilərin hakimiyyəti və o dövrdə baş verən tarixi hadisələr, eləcə də Şah İsmayıl Xətai şəxsiyyəti, sərkərdəliyi ön plana çıxıb. Əzizə Cəfərzadənin "Bakı-1501" romanında Şah İsmayılın bütün həyatı deyil, əsasən, 1501-ci ilə qədər olan tarixi hadisələr izlənir. Əslində, Şah İsmayıl Xətai mövzusuna dönüşün əsasını Əzizə Cəfərzadənin bu əsəri ilə qoyulduğunu demək olar. Yazıçı həmin əsərində Şah İsmayılın Şirvanşah Fərrux Yassar ilə apardığı mübarizə və Bakını ələ keçirməsi hadisəsi üzərində dayanır. Ə.Cəfərzadənin bu romanı XVI əsrin əvvəllərində Azərbaycanın coğrafi baxımından indiki və ətraf ərazilərində baş verən müharibələrdən, dini çəkişmələrdən, Azərbaycandakı Səfəvilər dövlətinin qüdrətlənməsindən, qızılbaşların Şamaxı və Bakı qalasına hücumundan, Şah İsmayıl Xətainin bir padşah, sərkərdə, şair kimi mürəkkəb həyatından bəhs edir. Əsəri maraqlı edən bir cəhət də onun çoxlu tarixi faktları bədii (bəzən rəvayət şəklində) obrazlarla canlandırmasıdır.

Əlisa Nicatın "Qızılbaşlar" romanı Qızılbaşlarla bağlı ilk roman olmaqla bərabər, həm də indiyə qədər bu mövzuda yazılan əsərlər içərisində öz dəyərini qorumaqdadır. Romanda XV əsrin axırları, XVI əsrin ilk illərində baş vermiş hadisələr təsvir edilib. Əsərdə kiçik İsmayılın başına gələn müsibətlər, Hüseyn bəyin İsmayılı igid kimi böyütməsindən, İsmayılın hələ 12-13 yaşlarında olarkən ordu başına keçib Şirvana yürüşündən, sonda da şahlıq taxtına çıxmasından bəhs olunur. Bu əsər tarixi baxımdan olduqca qiymətlidir.

Fərman Kərimzadənin "Xudafərin körpüsü" romanında XV əsrin sonu XVI əsrin əvvəllərində cərəyan etmiş tarixi hadisələr, Şah İsmayıl Xətainin uşaqlıq və gənclik illəri, hakimiyyət uğrundakı mübarizəsi, həmçinin onun bir şair, sərkərdə və dövlət xadimi kimi yetişib formalaşdığı tarixi dövr təsvir edilib.

Tarix fənninin tədrisi zamanı bu əsərlərin hər hansısa birindən mövzunun izahını zənginləşdirəcək, onun tarixiliyini qüvvətləndirəcək hissələr seçilərək müəllim tərəfindən istifadə oluna bilər. Eyni zamanda dərsin motivasiya mərhələsində Şah İsmayılın şəkli, ona məxsus şeir nümunəsi, Səfəvilər dövlətinin bayrağı və s. bu kimi vasitələrlə yanaşı, əsərlərin də müəyyən hissələrindən faydalanmaq olar [Veyisova Z. 2004]. Bununla bərabər, yaradıcı tətbiqetmə mərhələsində işlənə və "XV əsrin sonunda Azərbaycandakı qarışıq siyasi vəziyyətdə İsmayılın yüksəlişi" adlı essenin yazılmasında mənbə kimi məsləhət görülə bilər.

Dərs prosesində Nəriman Əbdülrəhmanlının "Taclı" romanından da istifadə edilməsi mümkündür. Əsərdə Şah İsmayıl Xətai və onun həyat yoldaşı Taclı bəyimin həyatından bəhs olunur. Zəngin tarixi mənbələr əsasında yazılmış roman Səfəvilər dövründə gizli qalmış bir çox məsələlərə aydınlıq gətirmişdir.

"Səfəvi-Osmanlı müharibələrinin başlanması" mövzusunda Fərman Kərimzadənin "Çaldıran Döyüşü" tarixi romanından yararlanmaq olar. Bu əsərin adı Səfəvilərlə Osmanlılar arasında baş vermiş Çaldıran döyüşündən götürülmüşdür. Romanda Şah İsmayıl Xətainin vahid Azərbaycan uğrunda apardığı gərgin mübarizələrdən, əhalinin orta əsr məişət yaşantısından bəhs edilir. Bu əsərdən istifadə etməklə həmin dövrdə əhalinin həyat şəraiti, siyasi vəziyyətlə bağlı təsvir olunan hadisələr şagirdlərin təsəvvürlərini zənginləşdirəcək.

**Nəticə / Conclusion**

Ölkəmizin ərazi bütövlüyünü mənfur düşmənlərdən qorumaq üçün övladlarımız vətənpərvər ruhda tərbiyə olunmalıdır. Bu önəmli məsələ Azərbaycan dövlətinin təhsil siyasətinin əsas prioritetlərindəndir və daim diqqət mərkəzindədir. Bu məsələdə əsas istifadə olunan vasitələrdən biri də tarix dərslərində məhz bədii ədəbiyyat nümunələrinə müraciət etməkdir, lakin bədii ədəbiyyatdan istifadə olunan dərslərin hazırlanmasının müəyyən çətinlikləri mövcuddur. Belə ki, müəllim əvvəlcədən keçəcəyi mövzuya uyğun hissələri bədii əsərdən seçib, dərs müddətini nəzərə alaraq, bu hissəni düzgün qurmalıdır. Bu üsul orta sinif şagirdləri üçün olduqca effektlidir. Müəllimin bədii ədəbiyyatdan bu və ya digər ədəbi personajı öz izahına əlavə etməsi vacib üsullardan biridir. Belə ki, müəllim öz şərhini bədii əsərdən hissələr verməklə,





əsərdəki təsvirlərdən, müqayisələrdən, faktlardan nümunələr gətirərək dərsini zənginləşdirə bilər. Nəzərə almaq lazımdır ki, dərsin gedişində bədii əsərdən geniş formada istifadə edib, mövzunun bütün izah və şərhini obrazlarla, hadisələrlə doldurmaq da düzgün hal deyil. Tarix fənninin tədrisində bədii ədəbiyyatdan istifadə dərsi bədii obrazlarla bəzəmək, məktəbliləri əyləndirmək kimi məqsədlər güdmür. Burada əsas qayə keçmişdə baş vermiş hadisə və prosesləri anlamağa kömək etməklə yanaşı, yeni dərsin tərbiyəvi və elmi məqsədlərinin həllində yardımçı olacaq bədii ədəbiyyatdan istifadədir.

Qeyd etmək lazımdır ki, müəllim heç zaman yeni bilik öyrənmək arzusunu itirməməli, daim öz üzərində işləməli, yaradıcı, uğurlu dərslər təşkil etməli, eyni zamanda yeni təlim texnologiyalarından istifadə etmə bacarığına yiyələnməlidir. Tarixin tədrisi prosesində bədii obrazların təsvirini verməklə, tarixi hadisələri öyrənərkən onun bizə nəyi dərk etdirməyə çalışdığını məktəblilərə izah etmiş oluruq. Elə bu cəhətinə görə bədii ədəbiyyatdan istifadə olunması tarixin tədrisi üçün əlverişli olub, müsbət təsirlərə malikdir. Müəllim tarix fənninin tədrisində bu və ya digər dərəcədə bədii əsərlərdən istifadənin üstün cəhətlərindən faydalana, dərsin gedişində, tapşırıq, müstəqil iş və başqa bu kimi hallarda onlara müraciət edə bilər. Bu vasitə ilə yalnız şagirdlərin dərsi daha yaxşı qavramasına deyil, eyni zamanda dünyagörüşlərinin, mütaliə vərdişinin, empatiya hissinin formalaşmasına, oxuduğu kitablara tarixi aspektdən yanaşmasına da müsbət təsir göstərmiş olarıq.

Şagirdlər öz fikir və ifadələrini, baxış tərzlərini açıq və azad formada çatdırmaq, ayrı-ayrı informasiya mənbələrindən faydalanmaq, öz ideyalarını başqalarına ifadə etmək və digər bu tipli hüquqlara malikdirlər. Bədii ədəbiyyat nümunələrindən istifadənin bu hüquqların mənimsənilməsində, formalaşdırılmasında özünəməxsus yeri mövcuddur. Ümumiyyətlə, bədii ədəbiyyat insan şəxsiyyətinin formalaşmasında mühüm əhəmiyyətə malikdir.

Məktəblilərin mənəvi və estetik cəhətdən inkişafı üçün bədii ədəbiyyatın xüsusi rolu vardır. Bədii obrazlar vasitəsilə şagirdlər nəyin yanlış, nəyin doğru olduğunu fərqləndirə, hər hansı bir hərəkətin səbəb olacağı nəticələri əvvəlcədən təxmin edə bilər ki, bu da gələcək həyatdakı fəaliyyətlərində onlara müstəsna dərəcədə köməklik göstərər. Elə təhsil siyasətimizin məqsədlərindən biri də məktəbliləri gələcək həyata düzgün hazırlamaqdır.

Bu dövlət əhəmiyyətli məsələnin həllində bədii ədəbiyyatın tarix fənninin tədrisindəki rolunun, istifadəsinin mühüm əhəmiyyəti danılmazdır.

**İstifadə edilmiş ədəbiyyat / References**


1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2003). Fəal təlim. Təlimatçılar və müəllimlər üçün vəsait. Bakı, Təhsil. 361 s.
2. Cəbrayılov İ. (2006). Azərbaycan tarixinin tədrisi metodikası. Bakı, 236 s.
3. Cəfərov N. (2014). "Tarixin tərcümeyi-halı", Bakı, 256 s.
4. Cəlilov A. (2006). Azərbaycan tarixinin interaktiv təlim metodları ilə tədrisində şagirdlərdə tarixi anlayışların formalaşdırılması. Bakı, Nurlan.
5. Əmirov M. (2009). Orta məktəbdə tarix tədrisinin aktual problemləri. Bakı, 160 s.
6. Əmirov M. (2011). Ümumtəhsil məktəblərində tarixin fəal interaktiv təlimi metodikası. Bakı, 680 s.
7. İsayeva T. (2009). Ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin tədrisində mətn üzərində işin təşkili (V-XI siniflər üzrə), Bakı.
8. Kərimov Y. (2007). Təlim metodları. Bakı, Çaşıoğlu. 272 s.
9. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. (2008). Bakı, Kövsər. 224 s.
10. Lisova K. (2001). Tarix dərslərində sənədlərdən istifadə. Xalq təhsili, № 5.
11. Məlikov R., Nəzərli T. (2002). Tarixin interaktiv təlimi. Müəllimlər üçün metodik vəsait. Bakı, Çaşıoğlu. 128 s.
12. Məmmədova M. (2015). Tarixin tədrisinin aktual problemləri. Bakı.
13. Mərdanov M. (2006). Azərbaycan təhsili dünən, bu gün, sabah. Bakı, Təhsil. 297 s.
14. N.Gəncəvi (2004). "Sirlər xəzinəsi". Bakı, 264 s.
15. Rumyantsev V. (2003). Tarixi mənbələrlə iş, № 3.
16. Studenikin M. (2004). Məktəbdə tarixin tədrisi metodikaları. Moskva.
17. Veyisova Z. (2004). Fəal dərsin aparılması üzrə tövsiyyələr. Bakı, Norveç qaçqınlar şurası.
18. Veyisova Z. (2007). Fəal/interaktiv təlim. Müəllimlər üçün vəsait. Bakı, Unisef.
19. Vyazemsky E. (2003). Tarixin tədrisi nəzəriyyəsi və metodları. Moskva.
20. Ziyadoğlu R., Musayev D. (2006). Məktəbdə tarixin interaktiv təlim problemləri. Tarix, insan və cəmiyyət, № 1(2).